

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 124 (21.025)

2 iyul 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 1 iyul tarixli Sərəncamı ilə cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin qorunmasında və xüsusi tapşırıqların yerinə yetirilməsində fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları da vardır.

**"İgidliyə görə" medalı ilə**

Əsgərov Rafiq Yəhya oğlu – polis kapitanı

İmanov İman Kazım oğlu – polis polkovnik-leytenantı

## Ə.M.Mahmudova "Əməkdar dövlət qulluqçusu" fəxri adının verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının vergi orqanlarında səmərəli fəaliyyətinə görə Əli Muxtar oğlu Mahmudova **"Əməkdar dövlət qulluqçusu"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 iyul 2014-cü il*

## Vergi orqanlarında vakant olan vəzifələrin tutulması üçün test imtahanı keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada muxtar respublikanın vergi orqanlarında vakant olan vəzifələrin tutulması üçün test imtahanı keçirilib. İmtahanın şəffaf keçirilməsi üçün hər cür şərait yaradılıb. Bu səbəbdən də imtahan keçirilən müddətdə heç bir nöqsan qeydə alınmayıb.

Komissiyaya sənəd verən 40 nəfər namizədin 38-i imtahanda iştirak edib. İmtahanda namizədlərə Vergi, Əmək, İnzibati Xətalar, Cinayət, Cinayət-Prosessual və digər normativ-hüquqi aktları əhatə edən 90, məntiqi düşüncə qabiliyyətini yoxlamaq üçün 10 sual təqdim olunub. İmtahanda Azərbaycan Respublikası Təhsil Ləbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin və Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin əməkdaşları müşahidəçi kimi iştirak ediblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyadan verilən məlumata görə, test imtahanında 65 və ya daha artıq suala düzgün cavab verən namizəd növbəti mərhələyə buraxılacaq.

Bu gün namizədlər nəticələri Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyindən öyrənə bilərlər.

**Muxtar MƏMMƏDOV**

## Yeni yaşayış binaları əhalinin mənzil-məişət şəraitini daha da yaxşılaşdıracaq

Naxçıvan Muxtar Respublikasında aparılan genişhəcmli tikinti-quruculuq işlərinin bir hissəsini də əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər təşkil edir. Bu sahədə görülən işlərin nəticəsidir ki, son illər xeyli ailə yeni, hər cür şəraitə malik mənzillərlə təmin olunub. Yeni yaşayış binalarının tikilməsi, təmirə ehtiyacı olan binaların əsaslı şəkildə yenidən qurulması vətəndaşlara rahat yaşamaq imkanı verməklə bərabər, həm də şəhərimizə gözəllik bəxş edir.

Bunlardan biri də Naxçıvan şəhərinin "İstiqlal" küçəsində yerləşən 87 nömrəli yaşayış binasıdır. "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən əsaslı təmir edilən bina zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarətdir. Binanın bünövrəsində bərkitmə işləri aparılaraq yeni dayaqlar qoyulub, eni 3 metr artırılıb. 33 mənzildən ibarət binanın dam örtüyü vurulub, qapı-pəncərələr salınıb. Hazırda daxildə suvaq işləri aparılır, son mərtəbədə arakəsmələr hörülür, fasad hissədə isə binanın üzlük daşla üzlənməsi davam etdirilir.



Atatürk küçəsində inşa olunan yeni yaşayış binası isə öz əzəməti ilə göz oxşayır. Zirzəmi ilə birlikdə 9 mərtəbədən ibarət olacaq binada tikinti işlərinə ötən ilin fevral ayından başlanılıb. 54 mənzilli nəzərdə tutulmuş yaşayış binasında hörgü işləri başa çatdırılıb, dam örtüyü vurulub. Hazırda daxildə və fasad hissədə suvaq işləri aparılır, pəncərələr salınır. Binanın tikintisi "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən aparılır.

Həmin küçədəki 5 nömrəli yaşayış binasının isə əsaslı şəkildə yenidən qurulmasına başlanılıb. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən yenidən qurulan bina əvvəllər ikimərtəbəli olub. İndi isə bina bir mərtəbə artırılaraq əlavə 7 metrədək genişləndirilib. Hazırda binanın dam örtüyünün vurulmasına başlanılıb, ikinci və üçüncü mərtəbələrin bəzi bölümlərində arakəsmələrin hörülməsi davam etdirilir. İşlər yekunlaşdıqdan sonra 30 mənzildən ibarət olacaq binanın birinci mərtəbəsində mağazalar və xidmət obyektləri fəaliyyət göstərəcək.



Hər üç obyektdə yerli tikinti materiallarından istifadə edilməklə təhlükəsizlik qaydalarına da ciddi əməl olunur.

**Səbuhi HƏSƏNOV**

2014-cü il iyunun 30-da Azərbaycan Milli Elmlər Akademiyasının ümumi yığıncağı olmuş, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvlüyünə seçkilər keçirilmişdir. Seçkilər nəticəsində Naxçıvan Muxtar Respublikasından namizədliyini verən aşağıdakı şəxslər Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvləri seçilmişlər:

**Həqiqi üzv**

Talıbov Tariyel Hüseynəli oğlu – botanika ixtisası üzrə

**Müxbir üzvlər**

Məhərrəmov Saleh Heydər oğlu – biologiya ixtisası üzrə

Səfərli Hacıfəxrəddin Yəhya oğlu – tarix ixtisası üzrə

Şahverdiyev Zəhmət Əbülfət oğlu – tarix ixtisası üzrə

Abbasov Əliəddin Dəyyan oğlu – kimya ixtisası üzrə

Bağırov Adil Nəsib oğlu – dilçilik ixtisası üzrə

*2 iyul Azərbaycan Polisi Günüdür*

## Naxçıvan polisi sabitliyin və əmin-amanlığın keşiyindədir

***Ümummilli liderimiz Heydər Əliyevin 1998-ci il 24 may tarixli Fərmanı ilə Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin tərkibində ilk polis orqanlarının təsis edildiyi gün – 2 iyul "Azərbaycan Polisi Günü" elan olunmuşdur.***

Ölkəmizdə daxili işlər orqanlarının inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən sonra daxili işlər orqanlarına da dövlət qayğısı güclənmiş, vətəninə və xalqına sədaqətli kadrların irəli çəkilməsinə, əməkdaşların vətənpərvərlik, milli dəyərlər əsasında təlim-tərbiyəsinə, peşəkarlığın yüksəldilməsinə xüsusi diqqət yetirilmişdir. Bu dövrdən etibarən şəxsi heyətin milli dövlətçilik ideologiyası əsasında formalaşdırılmasına başlanılmışdır.

1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan ümummilli liderimizin diqqət və qayğısı ilə polis orqanlarının maddi-texniki bazası möhkəmləndirilmiş, xidməti fəaliyyətin təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi üçün zəruri olan kadr potensialı yaradılmışdır. Ulu öndər polis əməkdaşları qarşısında mühüm vəzifələr müəyyənləşdirərək deyirdi: ***"Polis peşəsi ağır peşədir. O, bir tərəfdən yüksək vətəndaşlıq məsuliyyəti, cəsarət, şəxsi mətanət, ikinci tərəfdən bilik, dərrakə, elm, təhsil və təcrübə tələb edir. Cinayətkarlığın qarşısının alınması, dövlətin yaratdığı bütün imkanlardan respublika vətəndaşlarının bəhrələnməsi üçün dinc şəraitin təmin edilməsi, asayişin və qanunçuluğun möhkəmləndirilməsi naminə polis daim öz peşəkar səviyyəsini yüksəltməli, gündəlik işini müasir tələblərə, beynəlxalq təcrübəyə və normalara uyğun qurmalıdır".***

Müstəqillik illərində dahi şəxsiyyətin rəhbərliyi ilə daxili işlər orqanlarının fəaliyyətinin düzgün istiqamətə yönəldilməsi, onların xalqa və dövlətə xidmət edən peşəkar kadrlarla təmin olunması ölkəmizdə sabitliyin bərqərar edilməsinə şərait yaratmışdır. Cəmiyyətdə ictimai-siyasi sabitlik, əmin-amanlıq tam bərpa edilərək kriminogen durum nəzarətə götürülmüş, insanların polisə və bütövlükdə, dövlət strukturlarına inamı və etimadı artmışdır. Bununla yanaşı, daxili işlər orqanlarının normativ-hüquqi bazasının və təşkilati əsaslarının yaradılması üçün qanunlar qəbul edilmiş, fərman və sərəncamlar imzalanmışdır. Dahi şəxsiyyətin 1994-cü il avqustun 9-da imzaladığı "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" Fərman mütəşəkkil cinayətkarlıqla mübarizənin təşkilati-hüquqi bazasının əsasını qoymuşdur. Qanunvericilik bazasının təkmilləşdirilməsi sonrakı dövrdə də davam etdirilərək "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunlar, "Daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" qəbul edilmişdir.

Bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən daxili işlər orqanlarına hərtərəfli diqqət və qayğı göstərilir, ölkəmizdə sabitliyin və asayişin qorunması istiqamətində ardıcıl tədbirlər görülür. 2004-cü ildə qəbul olunmuş "Azərbaycan Respublikasında polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair Dövlət Proqramı" müasir dövrün tələbinə uyğun islahatların aparılmasında, maddi-texniki bazanın və şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsində mühüm əhəmiyyət kəsb etmişdir. Dövlət proqramına uyğun olaraq, vətəndaşların məruz qala biləcəyi hüquqazidd əməllərə qarşı təxirəsalınmaz operativ tədbirlərin görülməsi, eləcə də ictimaiyyətlə əlaqələrin daha effektli təşkili məqsədilə "102" və "Təhlükəsiz şəhər" xidmətləri yaradılmışdır.

Muxtar respublikamızda da polis orqanları diqqət və qayğı ilə əhatə olunmuşdur. 1995-ci ildən ötən müddət ərzində Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarının maddi-texniki bazasının ən müasir səviyyəyə çatdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin inzibati binası da daxil olmaqla bütün ərazi polis orqanlarının inzibati binalarının yenidən qurularaq istifadəyə verilməsi, xidməti avtomobillərin yeniləri ilə əvəz edilməsi, xidmət zamanı informasiya-kommunikasiya texnologiyalarından maksimum istifadə olunması polisin işini daha da asanlaşdırmışdır.

Bu gün muxtar respublikamızda xüsusi diqqət və qayğı ilə əhatə olunan polis cinayətlərin, inzibati xətaların və digər hüquqpozmaların baş verməmədən qarşısının alınması istiqamətində uğurla mübarizə aparır. Hər bir polis əməkdaşının ən müasir texniki avadanlıqlardan, informasiya texnologiyalarının son nailiyyətlərindən istifadə etməsi cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin və təhlükəsizliyin təmin olunmasında operativliyi artırmışdır. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin rəsmi internet səhifəsinin və elektron poçtunun fəaliyyət göstərməsi isə xidmətin səmərəli təşkilinə, eləcə də vətəndaşların müraciətlərinin vaxtlı-vaxtında həllinə şərait yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci il 12 mart tarixli "Polis sahə məntəqələrinin fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Sərəncamı daxili işlər orqanlarının fəaliyyətinin daha effektiv təşkilinə şərait yaratmışdır. Hazırda Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin bütün polis idarə və şöbələrində polis sahə məntəqələri fəaliyyət göstərir. Bununla yanaşı, muxtar respublikanın şəhər, rayon və kəndlərində, eləcə də ümumtəhsil məktəblərində mütəmadi olaraq görüşlər keçirilir, maarifləndirici söhbətlər aparılır.

***Muxtar respublikamızda son 18 ildə hüquq-mühafizə orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsinin, onlara yüksək səviyyədə xidməti şəraitin yaradılmasının və profilaktik tədbirlərə üstünlük verilməsinin nəticəsidir ki, cinayətkarlıq halları minimuma endirilmişdir. Əgər cinayətkarlığın aşağı düşməsinin bir səbəbi daxili işlər orqanlarına göstərilən diqqət və qayğıdırsa, digər səbəbi də muxtar respublikamızın hərtərəfli sosial-iqtisadi inkişafıdır. Daxili işlər orqanlarının əməkdaşları bundan sonra da göstərilən etimadı doğruldacaq, dövlətçiliyin qorunmasında, asayişin təmin edilməsində bütün qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.***

***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin mətbuat xidməti***

***Ölkədə həyata keçirilən iqtisadi tənzimləmə vasitələri arasında əhalinin məşğulluğunun təmin edilməsi mühüm əhəmiyyətli məsələlərdəndir. Məşğulluq kimi vacib bir sahədə də görülən işlər məhz davamlı inkişaf üçün əmək ehtiyatlarından səmərəli istifadə olunması məqsədi güdür. Bu, peşə və ixtisasından asılı olmayaraq, hər kəs üçün faydalı olan əməyin təşkili, insanların bilik, bacarıq və vərdişlərindən maksimum səmərə ilə istifadə olunması üçün dövlət tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər sistemidir. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən məşğulluq tədbirləri də hər kəsin qabiliyyətindən, sahib olduğu iş qüvvəsindən səmərəli istifadəni qarşıya məqsəd qoyaraq bu istiqamətdə dövlətin yeritdiyi sosial siyasətdə mühüm yer tutur.***

# Əhalinin məşğulluğunun artırılması üzrə dövlət proqramının icrası uğurla davam etdirilir

Ötən il dekabrın 18-də muxtar respublikada əmək bazarının tənzimlənməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Keçən müddət ərzində adıçəkilən dövlət proqramının icrası ilə bağlı Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız məlumatda bu sahədə xeyli işlər görüldüyü qeyd olunur. Belə ki, cari ilin ilk 5 ayı ərzində muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi məqsədilə real vəziyyət təhlil edilmiş və əmək bazarında təklif olunan işçi qüvvəsi ilə mövcud iş yerlərinin sayı arasında tarazlığın sabit olduğu müəyyən edilmişdir. Bu dövrdə aparılan təhlil xarakterli işlər kimi əmək bazarında müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatın müəyyənləşdirilməsi məqsədilə 332 dövlət və özəl müəssisədə sorğular keçirilmişdir. Aktiv məşğulluq tədbirlərində məşğulluq xidməti orqanlarına müraciət edən 1133 işaxtaran vətəndaşın vakant iş yerlərinə göndərilməsi təmin edilmiş, işaxtaran vətəndaşların müvəqqəti məşğulluğunu təmin etmək məqsədilə 52 nəfər, o cümlədən 27 nəfər sosial əhəmiyyətli haqqıödənilən ictimai işlərə cəlb olunmuşdur. Cari ilin aprel ayında rayon (şəhər) məşğulluq mərkəzləri tərəfindən keçirilmiş əmək yarmarkalarında 320 nəfər işlə təmin olunmuş, tətil günlərində gəlir əldə etmək istəyən 21 tələbə-gəncin mövsümi və haqqıödənilən ictimai işlərə göndərilməsi təmin edilmişdir.

Muxtar respublikada kiçik və orta sahibkarlığın inkişafı, həmçinin yeni iş yerlərinin yaradılması məqsədilə Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondu tərəfindən muxtar respublikada fəaliyyət göstərən hüquqi və fiziki şəxslərə 16 layihə üzrə 230 min manat həcmində maliyyə dəstəyi göstərilmiş, əlavə olaraq muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən 23 milyon 357 min manat güzəştli şərtlərlə kreditlər verilmişdir. Sahibkarlığa yeni başlamaq istəyən şəxslərin maarifləndirilməsi, onlara iqtisadi və hüquqi informasiyaların verilməsi məqsədilə İqtisadiyyat və Sənaye Nazirliyində yaradılmış "Operativ əlaqə sistemi" vasitəsilə məsləhət və informasiya, həmçinin "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən sahibkarlıq subyektlərinə şifahi məsləhət xidməti göstərilmişdir.

Əmək bazarının tələbinə müvafiq olaraq, işaxtaranların peşə hazırlığının təşkili də diqqət mərkəzində olmuşdur. Qeyd edilən dövr ərzində Naxçıvan Regional Peşə Tədris Mərkəzində əmək bazarının tələbləri nəzərə alınaraq rəqabətqabiliyyətli ixtisaslar – traktorçu-maşinist, dərzi, xalçaçı, misgər, qaz təsərrüfatının istismarı və təmiri üzrə nəzarətçi-çilingər, kinooperator, televiziya rejissoru, teleaparıcı, elektrik montyoru, bərbər, Təhsil Nazirliyinin tabeliyində olan peşə liseylərində isə elektrik qaz qaynaqçısı, qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər, elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru peşə kursları təşkil edilmişdir.

Xidmət sahələrində, o cümlədən məişət, iaşə, istehsal və ticarət sahələrində işləyən işçilərin peşələrinə uyğun standartların tətbiqi məqsədilə 8 seminar keçirilmiş, 59 təsərrüfat subyektinə peşə standartları barədə maarifləndirici məktublar göndərilmişdir.

Muxtar respublikada fəaliyyət göstərən təhsil müəssisələrinin və şadlıq saraylarının xidmət işçiləri üçün "İctimai-iaşə obyektlərinin fəaliyyətlərinə dair tələblər" hazırlanmış, eyni zamanda onlar üçün vahid geyim formaları müəyyənləşdirilmiş, xidmət sahələri üzrə peşəkar kadrların hazırlanması məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində ofisiant, aşpaz köməkçisi, dərzi, bərbər və qadın bərbəri, peşə liseylərində isə bərbər-manikürçü və ərzaq malları satıcısı üzrə peşə kursları təşkil edilmiş, "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində iaşə obyektində və satış mağazalarında çalışan işçilərə tədris kursları keçilmişdir.

Muxtar respublikada əmək bazarının tələblərinə uyğun milli və xalq tətbiqi sənət növləri üzrə Naxçıvan Regional Peşə Tədris Mərkəzində xalçaçı və misgər peşələri üzrə kurslar təşkil edilmiş, gənclərin milli və xalq tətbiqi sənət növlərinə marağının artırılması məqsədilə "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin tabeliyində fəaliyyət göstərən xalq yaradıcılıq emalatxanasında ağac üzərində oyma, rəssamlıq, xalçaçılıq, dekorativ-tətbiqi sənət növləri üzrə sahələrin fəaliyyəti davam etdirilmişdir.

"Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində, habelə Dövlət Miqrasiya Xidmətində iri sahibkarlıq subyektlərinin iştirakı ilə əmək bazarında əcnəbi işçiyə olan tələbatın müəyyənləşdirilməsi ilə əlaqədar keçirilən tədbirlərdə əmək bazarına daxil olan əcnəbi işçi qüvvəsinin keyfiyyət tərkibi nəzərə alınaraq həmin sahələrin tələbatının yerli işçi qüvvəsi hesabına ödənilməsinə dair maarifləndirici tövsiyələr verilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən işçilərin ixtisaslarının artırılması və müəssisələrdə mövcud olan vakansiyaları yerli işçi qüvvəsi hesabına təmin etmək məqsədilə hazırlanmış maarifləndirici bukletlər işəgötürənlərə təqdim edilmişdir.

Muxtar respublikanın ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinin peşə seçiminə köməklik, əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatların verilməsi məqsədilə ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinə tədris müddəti ərzində peşəyönümü məşğələlər keçilmiş, sosial cəhətdən həssas əhali qruplarının məşğulluğunun təmin edilməsi istiqamətində müvafiq tədbirlər reallaşdırılmışdır. Sosial müdafiəyə ehtiyacı olanların işlə təmin olunması üçün 163 kvota yeri ayrılmış və sosial müdafiəyə ehtiyacı olan 51 şəxsin kvota yerlərinə göndərilməsi təmin edilmişdir. Muxtar respublikada evlərdə xalça toxunması ənənəsini davam etdirmək üçün haqqıödənilən ictimai işlərə cəlb edilmiş 12 şəxsin ilkin olaraq toxuduğu və dəyəri 2450 manat olan xalçaların, Penitensiar Xidmətin cəzaçəkmə müəssisəsində cəzaçəkən məhkumlar tərəfindən ümumi dəyəri 2435 manat olmaqla, 48 ədəd rəsm və əl işinin satışı da təşkil olunmuşdur.

Qeyd olunan dövr ərzində sağlamlıq imkanları məhdud və cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin sosial reabilitasiyası məqsədilə sağlamlıq imkanları məhdud 9 şəxs müvafiq peşə kurslarına cəlb edilmiş, eyni zamanda penitensiar müəssisədə cəzaçəkənlər üçün misgər peşəsi üzrə kurs keçilmişdir.

İşçilərin əmək hüquqlarının təmin edilməsi istiqamətində də bir sıra işlər görülmüşdür. Belə ki, qeyri-formal məşğulluğun qarşısının alınmasına, işə götürülən şəxslərlə əmək müqaviləsinin bağlanmasına, onlara verilən əməkhaqlarının reallığı əks etdirməsinə nəzarət artırılmış, işəgötürənlər tərəfindən işçilər üçün müvafiq əmək şəraitinin yaradılmasına, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət etmələrinə nəzarət məqsədilə 66 obyektə baxış keçirilmişdir. Ümumilikdə, 87 yeni əmək müqaviləsinin bağlanmasına, 60 halda isə əməkhaqqının real göstərilməsinə nail olunmuş, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə edilməməsi səbəbindən 15 işçi tikinti sahəsindən müvəqqəti uzaqlaşdırılmış, istehsalatda çalışan 48 işçi yerində fərdi və kollektiv mühafizə vasitələri ilə təmin edilmiş, nöqsanların aradan qaldırılması məqsədilə işəgötürənlərə icrası məcburi olan göstərişlər verilmiş, əmək müqaviləsinin bağlanması və əməyin mühafizəsi üzrə tələblərin pozulmasına görə 4 fiziki şəxsə, ümumilikdə, 4000 manat məbləğində cərimə tətbiq edilmişdir. Bundan başqa, 278 müəssisədə istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqavilələrinin bağlanmasına nail olunmuşdur.

Bu müddət ərzində işaxtaranlara əmək bazarının tələblərinə uyğun təşkil olunan peşə kursları, ictimai işlər, habelə vakansiyalar barədə məlumatların çatdırılması üçün Dövlət Məşğulluq Xidmətinin (***www.isaxtar.nmr.az***) internet saytı hazırlanmış, işaxtaranların təşkil olunacaq peşə kurslarına təşviq edilməsi məqsədilə informasiya vasitələrində elanların verilməsi təmin edilmişdir.

Gələcəkdə bu sahədə kompleks nəticələr əldə etməklə regionumuzda bütün iqtisadi fəal əhalinin – işləyən və işaxtaran insanların sosial müdafiəsini gücləndirmək, daha çox yeni iş yeri açmaq, əhali gəlirlərini artırmaq və əmək bazarını daha təkmil hala gətirmək dövlət proqramının əsas məqsədlərindəndir.

**✍ Əli CABBAROV**

## Günəşdən güc alanlar...

***Yay gəlib, günlər uzanıb. Günəş yatağından daha tez qalxaraq zərrin şüalarını ətrafa səpələyir. Hər tərəf yamyaşıldır. Dağlar-düzlər güldən-çiçəkdən al-əlvan don geyinib, ağaclar barla, tarlalar məhsulla doludur. Elin varı aşıb-daşır. Çayların zümzüməsi, quşların cəh-cəhi bir-birinə qarışaraq xoş "simfoniya" yaradır. Yayın gəlişi, havaların isti keçməsi insanların əhval-ruhiyyəsinə müsbət enerji verməklə onları zəhmətə, qurub-yaratmağa daha da ruhlandırır. Kənd adamlarının işi-gücü, qayğıları birə-on qat artıb yayın gəlişi ilə. Onlar qızmar Günəşi tarlada qarşılamaq üçün indi səhərlər daha erkən durub işə tələsirlər.***



Sərhəd bölgəsi Sədərəyin taxıl zəmiləri, kartof, bostan-tərəvəz əkini sahələri, biçənəkləri göz işlədikcə uzanıb gedir. Torpağı bərəkətli, insanları zəhmətkeşdir bu yurdun. Ölkəmizdə, muxtar respublikamızda ərzaq təhlükəsizliyinin uğurlu həlli üçün həyata keçirilən tədbirlər Sədərəkdə də geniş miqyasda öz əksini tapır. Cari ilin məhsulu üçün keçən ilin payızında 1146,5 hektara buğda, 571,7 hektara isə arpa toxumu səpilib. Yaz əkinləri də müvəffəqiyyətlə başa çatdırılıb. 412 hektara arpa, 34 hektara paxlalı, 100 hektara dən üçün qarğıdalı, 21 hektara günəbaxan, 96 hektara kartof, 413 hektara tərəvəz, 186 hektara bostan, 160 hektara yonca bitkiləri əkilib.

Keçən il taxıl zəmilərindən 6 min 243 ton məhsul toplanıb. Taxılçılar deyirlər ki, bu, dövlətin qayğı və köməyi sayəsindədir. Hər yerdə torpaq sahibkarları kənd təsərrüfatına ümumdövlət qayğısından razılıqla danışırlar.

Sərhəd bölgəsində "sarı kəhrəba" zəmilərinin sahəsinin artması heç də təsadüfi deyildir. Ötən ilin payızında rayon İcra Hakimiyyətində keçirilən müşavirədə əkilməyən torpaqlarda taxılçılığı genişləndirmək və beləliklə də, ərzaq bolluğuna nail olmaq qərara alınmışdı. Təşəbbüs dərhal dəstəklənmiş və çörək sarıdan nigarançılığın olmaması üçün taxıl sahələrinin genişləndirilməsi əzmi ifadə edilmişdi.

İndi Sədərək kəhrəba dənizinə dönüb. Zəmilərdə görünən kombaynlar ruzi-bərəkət toplamaqdadırlar. Artıq biçilmiş sahə 470 hektardan çoxdur, hektarın orta məhsuldarlığı isə hələlik, 22 sentner civarındadır. Şair demişkən, torpaq məhsulu ilə, el taxılı ilə ürəkli görünür.

İyunun əvvəlində Sədərək Rayon İcra Hakimiyyətində taxıl tədarükü üçün texnikanın hazırlanması, məhsulun vaxtında və itkisiz yığılmasına köməklik göstərilməsi ilə bağlı məsələ müzakirə edilib. Qeyd olunub ki, "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"ndan irəli gələn vəzifələr Sədərəkdə də uğurla həyata keçirilir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına, o cümlədən buğda əkib-becərənlərə subsidiyaların, mineral gübrələrin verilməsi ilə bu sahəyə diqqət xeyli artırılıb.

Bu il taxıl üçün böyük zəhmət çəkilib: torpaq şumlanıb, keyfiyyətli toxum səpilib, zəmilərə qayğı göstərilib, nəticədə, sahələrdə bol məhsul yetişib. Texnikanın vaxtında biçinə çıxarılması, onun imkanlarından maksimum istifadə olunması təmin edilib. Hər hektardan götürülən məhsulun 2-3 ailənin illik tələbatını ödəyəcəyi gözlənilir.

Rayonda "Taxıl sahələrinin yanğın təhlükəsizliyi" mövzusunda müşavirə də keçirilib. Torpaq sahibkarlarının, fermerlerin, inzibati ərazi dairəsi üzrə nümayəndələrin iştirak etdiyi toplantıda yanğın təhlükəsizliyi tədbirlərindən danışılıb, cavabdeh şəxslərin biçin zamanı daha da diqqətli və hazırlıqlı olmasının vacibliyi vurğulanıb.

Taxıl biçini dövrü biz də bəzi sahələrə baş çəkdik. Araz çayı sahilinə uzanan yol geniş taxıl zəmisini iki yerə bölür. Bəzi yerlərin məhsulu biçilib. Havadan təzə buğda ətri, bərəkət iyi gəlir. Məhsulu yığılmış zəmilər adamın qəlbində xoş duyğular oyadır. Qollarını geniş açıb hamımıza ana olan, bizi yedirən, içirən, yaşadan bu bərəkətli çölləri qucaqlamaq istəyirsən...

Yolumuz Qaraağac kəndinədir. Rayonun qabaqcıl fermerlərindən olan Vəli İbrahimov burada yaşayır. Taxıl biçininin vəziyyəti ilə maraqlanırıq:

– Havalar əlverişli keçir, – deyir, – ona görə də hər dəqiqənin qədrini bilir, biçini mümkün qədər tez və itkisiz qurtarmağa çalışırıq. İlkin nəticələr fərəhlidir. Belə ki, ötən illərlə müqayisədə hər hektarın məhsuldarlığı 3-4 sentner yüksəlib. Elə zəmilərimiz var ki, hər hektarın məhsuldarlığı 30-35 sentnerə çatır. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti Sədərək bazasının kombaynçıları Qəzənfər Abbasov və İbrahim Məmmədovun işindən razıyıq. Onlar məhsulumuzu itkisiz biçirlər. Başqa sahələrdə də işlərimiz yaxşı gedir. Bu sözləri ona görə deyirəm ki, kənd adamı hər işlə məşğuldur: taxıl da əkir, bostan-tərəvəz məhsulları da yetişdirir, mal-qara da saxlayır. Daha doğrusu, öz illik azuqəsini və xərcini torpaqdan çıxardır. Yaz, yay, payız fəsillərində bekar vaxtımız olmur.

Heydərabad qəsəbəsinin əkin sahələrində də olduq, fermerlərlə, torpaq sahibkarları ilə sahələrdə görüşüb söhbət etdik, taxıl biçininin gedişini izlədik. Bölgənin hər yerində yüksək işgüzarlığın və mütəşəkkilliyin, ruh yüksəkliyinin şahidi olduq. Kənd adamlarını belə bir cəhət xüsusilə razı salır ki, taxıl biçinini vaxtında və itkisiz başa çatdırmaq üçün rayon İcra Hakimiyyətində xüsusi qərargah yaradılıb. Xahiş və müraciətlər dərhal, operativ surətdə öz həllini tapır.

***Yayın bu vədəsində ümidlərini torpağa bağlayan kənd adamları əsl hünər göstərir, daha çox məhsul istehsal etmək istəyilə yorulmaq bilmədən çalışırlar. Saat 14 radələridir. Sədərəkdə qızmar Günəş göydən yerə od ələyir. Amma əl işdən soyumur. Torpaq adamları sanki Günəşdən güc alırlar. Bir də axı günün bu çağında kombayn taxılı daha rahat biçir və döyür. Məhsulunuz bol, işiniz avand olsun, sədərəklilər.***

**✍ Cəfər ƏLİYEV**

Abbasqulu ağa Bakıxanov – 220

# Görkəmli ədib, ensiklopedik biliyə malik mütəfəkkir və müasir bədii nəsrimizin banisi

*Həyatda elə böyük mütəfəkkirlər, ədəbi şəxsiyyətlər olub ki, onların həyatı, yaradıcılığı öz xalqının tarixi keçmişinin bir parçasına çevrilmişdir. Belə tarixi şəxsiyyətlərdən biri də ensiklopedik biliyə malik olmuş Abbasqulu ağa Bakıxanovdur. O, bir çox sahələrə aid maraqlı əsərlər yazmış, yaradıcılığı ilə bütün sahələrə çox yaxşı bələd olan mütəfəkkir kimi tanınmışdır.*

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinin keçirilməsi haqqında" 12 fevral 2014-cü il tarixli Sərəncamında deyilir:* ***"Ensiklopedik biliyə və əhatəli dünyagörüşünə malik şəxsiyyət kimi Abbasqulu ağa Bakıxanov elmin, mədəniyyətin ən müxtəlif sahələrinə aid zəngin bir irs yaratmışdır".***



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamını Azərbaycan ictimai-mədəni fikir tarixinin görkəmli nümayəndəsi, böyük maarifçi, tanınmış alim və şair Abbasqulu ağa Bakıxanovun tarixi fəaliyyətinə verilən böyük qiymət hesab etmək olar. Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə Tədbirlər Planının təsdiq edilməsi ümumazərbaycanmiqyaslı bu şəxsiyyətin fəaliyyətinin, yaradıcılığının öyrənilməsi və təbliğ olunmasını vacib vəzifələrdən biri kimi qarşımıza qoyur.

Abbasqulu ağa Bakıxanovun "Riyazül-Qüds", "Qanuni-Qüdsi", "Gülüstani-İrəm", "Əsrarül-məlakut", "Təhzibül-əxlaq", "Kəşfül-qəraib", "Eynül-mizan" və başqa əsərləri onun bir sıra elm sahələrini çox gözəl bildiyindən soraq verir.

Abbasqulu ağa Bakıxanovun bədii əsərləri içərisində mənzum hekayələri, qəsidə, qəzəl, qitə, rübai, məsnəvi və sair formalarda yazılmış əsərləri, nəsihətləri, "Mişkatül-ənvar" adlı poeması, "Miratül-cəmal" adlı avtobioqrafik şeirləri vardır.

Abbasqulu ağa Bakıxanov özündən əvvəl yaşamış klassik Azərbaycan şairlərinin, eləcə də Şərq şairlərinin yaradıcılığına dərindən bələd olmuş, onların yaradıcılığından bəhrələnmiş, klassik şeir formalarından məharətlə istifadə edə bilmişdir. Rudəki, Nasir Xosrov, Qətran Təbrizi, Sənai Qəznəvi, Xaqani Şirvani, Nizami Gəncəvi, Cəlaləddin Rumi, Əmir Xosrov Dəhləvi, İmadəddin Nəsimi, Əbdürrəhman Cami, Məhəmməd Füzuli kimi onlarla qüdrətli şairin yaradıcılığından bəhrələnən Abbasqulu ağa Bakıxanov didaktik əsərlərində, poemalarında bu şairlərin sənət yolunu ustalıqla davam etdirmişdir.

"Mişkatül-ənvar" poemasında biz şairin özünün həyata baxışını, dünyagörüşünü aydınca görə bilirik. Didaktik məzmuna malik olan bu poemada müəllif daha çox öyüd və nəsihətlərə yer ayırır. O, gənclərə üz tutaraq deyir:

*Ey misilsiz cavan, çalış, hümmət eylə hər işə,*
*Cavanbəxtsən, qoca kimi tədbirli ol həmişə.*

Müəllif poemada zəmanə ilə bağlı fikirlərini poetik şəkildə oxucuya çatdıra bilir. Hiss olunur ki, ədib zəmanəsində haqsızlıqlarla üzləşmiş, ona görə də zəmanədən acı-acı şikayətlər etmişdir:

*Günəş Şərqdən tulu edib çıxan zaman səhərlər,*
*Ürəyimi min əzaba düçar edir qəm, kədər.*
*Sübh kimi köynəyimi parça-parça edib mən,*
*Odlu ahlar çəkirəm bu yanıqlı ürəkdən.*

A.Bakıxanovun poemasında müxtəlif hekayətlər verilir. Əsasən, tərbiyəvi mahiyyət daşıyan bu hekayətlər Nizami Gəncəvinin "Sirlər xəzinəsi", Cəlaləddin Ruminin "Məsnəvi", Marağalı Əhvədinin "Cami-cəm", Sədi Şirazinin "Gülüstan" və "Bustan" əsərlərini yada salır. Bu klassik əsərlərdəki didaktik nəsihətlər A.Bakıxanovun yaradıcılığına da xüsusi təravət gətirir. Həmin hekayətlərin birində deyilir ki, qaranlıq bir evdə doğulmuş uşaq evlərində bir ustaddan elm öyrənir. Uşaq şam işığından başqa, heç bir işıq tanımır. Müəllim nə qədər desə də ki, şamdan işıqlı Günəş var, uşaq ustada inanmayıb deyir ki, şamdan işıqlı heç nə ola bilməz:

*Bir gün səhər çölə çıxdı, uşaq heyran dayandı,*
*O, Günəşi görən zaman bu sözlərə inandı.*

A.Bakıxanov poemada yeri gəldikcə təmsillərdən, hekayətlərdən istifadə edir. A.Bakıxanova görə, zəmanənin hökmdarı ağıllı olsa, həmişə xalqının qayğısına qalsa, çətin gündə xalqı ilə bir olsa, onda o həm xoşbəxt, həm də ədalətli hökmdar kimi xalqı tərəfindən sevilər:

*Şahın hökmü olmalıdır xalq rəyinə müvafiq,*
*Elə bir iş tutmalı ki, xalqa olsun o, layiq.*
*Ölkəsində qəddarlığa, zülmə etsə şah adət,*
*Heç bir zaman xalq içində hökm sürməz ədalət.*
*Şah bir etsə zülmü, onun xadimləri yüz edər,*
*Gedər elin iqtidarı, hörməti də tez itər.*

A.Bakıxanov klassik şairlərin yolu ilə gedərək dövrünün, zəmanəsinin hökmdarlarına xalqa qayğı ilə yanaşmağı, ətrafına həmişə ağıllı, müdrik insanları yığmağı tövsiyə edir.

A.Bakıxanov bu poemasında, ilk növbədə, insanları xeyirxah işlər görməyə səsləyir. Onları nəfsinin qulu olmamağa çağırır:

*Nəfsin elə bir ağacdır, zəhərlidir həm barı,*
*Cəhənnəmdən gətirilmiş bil ki, onun tumları.*

"Miratül-cəmal" ("Surətin güzgüsü") əsərində toplanan şeirlər həm də A.Bakıxanovun şəxsi həyatını və tərcümeyi-halını aydınlaşdırmaq baxımından əhəmiyyətlidir. "Xəyalın uçuşu", "Avropa məclisi", "Ərzi-əhval" və sair şeirlərdən ibarət olan bu əsərdə biz səadəti uzaqlarda deyil, ancaq doğma vətənində axtarmağın lazım gəldiyini oxuyur və ömrün bəxtəvərliyini xalqa xidmətdə, yaradıcı əməkdə görən müəllifin duyğu və düşüncələri, işıqlı fikirləri ilə tanış oluruq.

A.Bakıxanovun yaradıcılığı göstərir ki, o, klassik şairlərin ədəbi ənənələrini davam etdirməklə yanaşı, həm də yeni demokratik ədəbiyyatın banilərindən biri olmuşdur. Ədibin ədəbi irsini ciddi öyrənməklə biz Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Qasım bəy Zakir, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə kimi mütəfəkkir yazıçı və şairləri aydın dərk edə bilərik. A.Bakıxanovun yaradıcılığı sübut edir ki, o, Şərq ədəbiyyatına dərindən bələd olmaqla yanaşı, rus və dünya ədəbiyyatını da yaxşı öyrənmiş, yeri gəldikcə bu ədəbiyyatdan da bəhrələnmişdir. O, Krılovun bəzi təmsillərini Azərbaycan dilinə tərcümə etmiş, "Qurd və ilbiz", "Tülkü və qoyun", "Yersiz iftixar" adlı alleqorik əsərlər yazmışdır. "Qurd və ilbiz" təmsilində özünü yersiz öyən alma qurdunun ölümü onu göstərir ki, boş və mənasız ömür sürən lovğaların həyatı beləcə məhv olub gedir. "Tülkü və qoyun" təmsilində isə tülkünün bicliyi ucbatından qurdun gödaza getməsi, qoyun ilə itin dostluğu önə çəkilir.

Abbasqulu ağa Bakıxanovun mənzum məktubları, "Fatma tar çalır", "Tatar nəğməsi", "Gözəl yay" və başqa şeirləri sübut edir ki, o həm də lirik bir şair kimi duyğu və düşüncələrini axıcı bir dillə oxucusuna çatdıra bilmişdir. "Tatar nəğməsi" şeri axıcılığı ilə daha çox seçilmiş, dillər əzbəri olmuşdur:

*Qalanın dibində durmuşdur yarım,*
*Əynində bahalı arxalığı var.*
*Qırmızı mahudun altından onun*
*Mavi rəng köynəyi gün kimi parlar.*
*...Atma daş, yarımdan mən aralıyam,*
*Onsuz da ürəkdən mən yaralıyam.*

A.Bakıxanovun qəzəlləri öz incəliyi ilə nəzər-diqqəti daha çox cəlb edir. Şərq poeziyasının klassikləri hesab olunan Xaqani, Nizami, Sədi, Hafiz, Nəsimi, Füzuli kimi ustadların qəzəl yaradıcılığındakı ənənələrini davam etdirən, qəzəllərini, əsasən, "Qüdsi" təxəllüsü ilə yazan şairin Azərbaycan və fars dillərində 140-a qədər qəzəli vardır. Bu qəzəllərə diqqət yetirəndə onun daha çox böyük Füzulidən bəhrələndiyi özünü açıq-aydın göstərir. Füzuli ədəbi irsinin A.Bakıxanova təsiri onun "Riyazül-Qüds" və "Kitabi-Əsgəriyyə" əsərlərində daha parlaq görünməkdədir.

A.Bakıxanovun qəzəllərinin əksəriyyətində, əsasən, azad eşq tərənnüm olunur. Lakin şairin bir sıra qəzəlləri də var ki, onlar dövrün ictimai-siyasi vəziyyətini və şairin dövrdən şikayətini özündə əks etdirməklə ədəbiyyatımızda ictimai məzmun daşıyan qəzəllər kimi tanınmaqdadır. Şairin qəzəlləri xanəndələrimiz tərəfindən də həmişə ifa olunmuşdur:

*Əldə mey, üzdə gülüş gəldi nigarım bu gecə,*
*Pis nəzərdən uzaq, ol çeşmi-xumarım bu gecə.*
*Yar üzü meylə qızarmış, meyi etmiş üzü al,*
*Nə məharət eləmiş, saqi, yarım bu gecə.*

Şairin başqa bir qəzəlində də biz gözəlin tərənnümünə rast gəlirik. Gözəlin daxili aləmi də zahiri kimi gözəldir:

*Yol saldım onun zülfünə sevdası gözəldir,*
*Hər şeydən onun gün kimi siması gözəldir.*
*Hər acı sözü yarın olar qəndə bərabər,*
*Bəh-bəh, nə əcəb işvəsi, qovğası gözəldir.*
*Tus əhli olan Qüdsi tapıb feyzi o yerdən,*
*Bu bakılı Qüdsi deyir, ixlası gözəldir.*

A.Bakıxanovun yaradıcılığında qəsidələrə, qitələrə, müxəmməslərə, rübailərə də rast gəlirik. Klassik şairlərin əksəriyyətinin yaradıcılığında klassik şeir şəkilləri daha çox işlənmişdir. Bu baxımdan A.Bakıxanovun "Bahar və xəzan" qəsidəsi mükəmməlliyi ilə seçilir. Qışın qoşunu bağları viran qoyur. Təbiətdə baş verən dəyişiklikləri şair elə gözəl təsvir edir ki, bunu sözlərlə çəkilmiş gözəl bir təbiət lövhəsi kimi göz önündə canlandıra bilərik:

*Gəldi qış ləşkəri, ah, bağları viran etdi,*
*Tökdü gül paltarını, hər xolu üryan etdi.*
*Bülbülü saldı necə sevdiyi güldən ayrı,*
*Gülşəni Yusifin hicrində cigərqan etdi.*

Şair bədii ifadə vasitələrindən bacarıqla istifadə edərək gözlərimiz önündə poetik lövhələr yaradır:

*Yıldırım ağladı göydən gülə matəm tutaraq,*
*Buludu sərv qəmində gözü giryan etdi.*
*Nərgizin gözlərini yumdu ədəb xabi ilə,*
*Həm qərənfil tacını xakilə yeksan etdi.*
*Süsənə, sünbülə bax, tökdü üzə saçlarını,*
*Zülmdən nalə çəkib çaki giriban etdi.*

Abbasqulu ağa Bakıxanov qitələrində qəsidələrindən fərqli olaraq, daha çox mənəvi təmizlik məsələlərinə toxunur. O, gəncləri elm dalınca getməyə, xalqı üçün xeyirli işlər görməyə çağırır:

*Bir gecə gördüm, qoca öyüd verir oğluna,*
*Deyir: malu-dövlətə bel bağlama, amandır.*
*Get, bala, elmi öyrən, qulaq ver hər hikmətə,*
*Elmlə bu dünyada hər iş əlා batandır.*

Qüdsi bir şair kimi, alim kimi həmişə öz xalqına xeyir verməyə çalışdığı üçün oxucusunu da bu yola dəvət edir. "Aldanma, ey oğul, mala, şöhrətə, ağlınla hər çətinliyə qalib gəl", – deyən şair insanları ədalət uğrunda mübarizəyə səsləyirdi:

*Beləcə haqq yolunda çarpışan hər mərd insan,*
*Ya xalqına xeyir verər, ya bu yolda verər can.*

Bilindiyi kimi, rübai klassik Şərq poeziyasının ən geniş yayılan şeir şəkillərindən biridir. Rudəkinin, Xəyyamın, Məhsəti Gəncəvinin, Əfzələddin Xaqaninin, Cəlaləddin Ruminin, Əmir Xosrov Dəhləvinin və digər klassik şairlərin rübailəri onu göstərir ki, hər bir dövrdə şairlər bu şeir şəklinə teztez müraciət etmişlər. Abbasqulu ağa Bakıxanovun da 40-dan artıq rübaisi vardır. Digər şairlərin yaradıcılığında olduğu kimi, Qüdsi də öz rübailərində dünya, kainat haqqında düşüncələrini, fəlsəfi fikirlərini rübailər vasitəsilə oxucularına çatdırmaq istəmişdir:

*Əgər can nur isə, bu zülmət nədir?*
*Zülmətsə, bəs nurlu məhəbbət nədir?*
*Demək, var vücudda zülmət də, nur da,*
*İfrata varmaqda bu adət nədir?*

Zəmanə ilə bağlı giley-güzarını da A.Bakıxanov rübailərində dilə gətirmişdir. Özündən əvvəl yaşamış şairlərin yaradıcılığında olduğu kimi, o da dünyanın vəfasızlığından, zalımlığından söhbət açır. Şair dünyada sevinclə kədərin qoşa olduğunu, bir-biri ilə bağlandığını dilə gətirərək deyir:

*Dünyada bir yerdə olur şadlıq, qəm,*
*Şadlıq kədər ilə bağlanmış möhkəm.*
*Şadlıq keçən kimi qəm edər zühur,*
*Şadlıq zühur edər, qəmlər keçən dəm.*

Görkəmli ədib Abbasqulu ağa Bakıxanovun bədii əsərləri içərisində "Nəsihətlər"i xüsusi yer tutur. Müəllif əsərin girişində yazır ki, qüdrətli Allahın köməyinə ümid edirəm ki, bu əsər uşaqlara faydalı olub, onların tərbiyəsinə getdikcə daha artıq təsir etsin. Müəllif uşaqlara üz tutaraq deyir: "Ey mənim əzizim! Sən insansan. Allah insanı dünyada hər şeydən yaxşı yaratmışdır. Görmürsənmi ki, heyvanlar o qədər böyük bədən və güc ilə insanın əlində əsirdirlər. İnsanlar arasında hər kəs çox bilikli və işbilən olsa, həmişə hörmətli olar. Deməli, gərək iş bilmək və yaxşılıq etmək qaydalarını o adamlardan öyrənmək lazımdır ki, onlar həyatda təcrübəli və qabiliyyətli olmuşlar. Belə adamların sözləri bizə nəsihətdir".

Müəllif nəsihətlərində insanları bir-birinə qarşı diqqətcil olmağa çağırır. İlk növbədə, gəncliyə elm və kamal dalınca getməyi tövsiyə edir. O yazır: "Hər kəs vəzifədə, elmdə və yaşda səndən böyüksə, ona hörmət elə, ta ki səndən kiçiklər də sənə hörmət etsinlər".

A.Bakıxanov elmli, kamallı insanları yüksək qiymətləndirir, uşaqlara da elm öyrənməyi tövsiyə edirdi: "Elm və kamalı əldə etməyi hər şeydən daha əziz tut. Çünki hər şeyi onların vasitəsilə əldə edirlər".

Böyük mütəfəkkirin nəsihətləri xalq arasında geniş yayılmışdır. Adama elə gəlir ki, bu nəsihətlər min illər boyu xalqımızın yaddaşında yaşayan nəsihətamiz sözlərdir. Çünki o, bir yazıçı kimi öz sözünü müdrikcəsinə deməyi bacarmışdır. O yazır: "Yaxşı əməldən iki dəfə zövq alarsan, birincisi, onu edəndə, ikincisi, onun əvəzi sənə çatanda".

A.Bakıxanovun doğma Azərbaycan dilində yazdığı "Kitabi-Əsgəriyyə" əsəri Azərbaycan ədəbiyyatı tarixində ilk povest adlana bilər. Bu əsərdə iki gəncin pak və səmimi eşqi tərənnüm edilir, bu saf məhəbbətə maneçilik törədən ictimai mühit, xurafat tənqid olunur. XIX əsrin birinci yarısında yaranmış bu əsər İsmayıl bəy Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" əsərindən əvvəl yazıldığı üçün biz A.Bakıxanovu müasir bədii nəsrimizin banisi kimi dəyərləndirə bilərik.

***Göründüyü kimi, anadan olmasının 220 illiyini qeyd etdiyimiz Abbasqulu ağa Bakıxanov xalqımızın böyük alimi, şairi, yazıçısı, tarixçisi, coğrafiyaşünası, bir sözlə, ensiklopedik biliyə malik mütəfəkkiri kimi, Azərbaycan tarixində mühüm yer tutan görkəmli tarixi şəxsiyyətlərimizdən biridir. Zaman belə tarixi şəxsiyyətləri unutmadığı kimi, xalqımız da mütəfəkkir övladını heç vaxt unutmur.***

**Asim YADİGAR**
*Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri*

## Çalxanqala kəndində maarifləndirici tədbir

*Kəngərli rayonunun Çalxanqala kəndində “Ailələrdə sağlam həyat tərzinin aşılanması, reproduktiv sağlamlıq, erkən və qan qohumluğu nikahlarının fəsadları” mövzusunda tədbir keçirilib. Tədbiri Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini Səxavət Həsənov açaraq belə tədbirlərin əhəmiyyətindən danışıb.*

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova “Ailədə qadının sağlam həyat tərzi aşılanmasında əsas rolu” mövzusunda çıxış edərək bildirib ki, qadın və ailə anlayışına ölkəmizdə dövlət səviyyəsində həssaslıqla yanaşılır. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 iyun tarixli Sərəncamı ilə “Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi bunun bariz ifadəsidir. Əhali, xüsusilə gənc ailələr arasında reproduktiv sağlamlıq və ailə planlaşdırılması haqqında maarifləndirmə işinin daha geniş surətdə aparılması və qadınların sağlamlığının mühafizəsi sahəsində tibbi xidmətin keyfiyyət və səmərəliliyinin yüksəldilməsi dövlətin əsas məqsədlərindən biridir.

Vurğulanıb ki, ailə dəyərlərini qoruyub saxlayan, nəsildən nəslə ötürən qadındır. O, övladının maddi ehtiyaclarını təmin etməklə yanaşı, onu aydın düşüncəyə, saf əqidəyə və ədəb-ərkana yiyələndirməli, bu yolla onun gələcəyini qurmalıdır. Unudulmamalıdır ki, bu həm də cəmiyyətin gələcəyini qurmaq deməkdir.

“Milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi qoruyub saxlamaq və onların icrasına nəzarət etmək, televiziya və internet kimi kütləvi informasiya vasitələrindən istifadəni səmərəli ola biləcək formaya salmaq kimi vəzifələr də ananın öhdəsindədir”, – deyən komitə sədri əlavə edib ki, əgər ana uşağın təhsilinə ciddi yanaşmasa, sözsüz ki, cəmiyyətə savadsız bir insan təhvil verəcəkdir. Diqqətə çatdırılıb ki, ana uşağın gələcək taleyi üçün böyük məsuliyyət daşıyır. Ona görə də yeni nəslin gələcəkdə quracağı ailənin bütövlüyünü qoruyub saxlamaq üçün ana övladına milli-mənəvi dəyərlərin öyrədilməsini, onların sağlam, yaradıcı əməyə alışmalarını, təhsil-tərbiyə məsələlərini, ümumiyyətlə, sağlam həyat tərzi seçmələrini daim diqqət mərkəzində saxlamalıdır.

Sonra Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının sədr müavini Arif Ağayev “Qadın hüquqları”, Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva “Keser əməliyyatı və onun ana və uşağa mənfi təsiri” mövzularında çıxışlar ediblər.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## İdman federasiyalarının yay planları

***Son 19 il Naxçıvan Muxtar Respublikasının idman tarixində mühüm mərhələ təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində idmanın maddi-texniki bazası gücləndirilmiş, idman qurğuları və obyektləri tikilib idmançıların ixtiyarına verilmişdir. Bu dövrdə ayrı-ayrı idman növləri üzrə 12 federasiya yaradılmışdır. İdman federasiyaları fəaliyyətlərini gündən-günə genişləndirməkdədirlər. Bəs yay fəslində federasiyalar xüsusi təlim-məşq keçirməyi nəzərdə tutublarmı? Sualı federasiyaların sədr müavinləri belə cavablandırdılar.***

Şahmatçılarımız Gürcüstan və Yunanıstanda keçirilən yarışlarda uğurla çıxış etmək üçün təlim-məşq prosesi keçiblər. Federasiyanın sədr müavini Emin Hacıyev bizimlə söhbətində bildirdi ki, şahmatçılarımız may ayında Gürcüstan Respublikasında keçirilən turnirdə iştirak ediblər. Həmçinin 16-27 iyun tarixlərində Yunanıstanda daha bir turnirdə zəka sahiblərimiz qüvvələrini sınayıblar. Bu səbəbdən təlim-məşq prosesinə ara vermədən davam etmişik.

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyası da hazırlıqlarına ara vermədən davam edir. İyun ayında onlar Rusiya Federasiyasında keçirilən turnirdə iştirak ediblər. Federasiyanın sədr müavini Nəriman Quliyev bizimlə söhbətində təlim-məşq barədə bunları dedi: “Mayın sonlarından etibarən idmançılarımızla təlim-məşqlərə başlamışıq. Rusiyanın Çebaksar şəhərində 13-15 iyun tarixlərində karate-do üzrə Avropa çempionatı keçirildi. Bu yarışa və qarşıdakı digər turnirlərə hazırlıq məqsədilə federasiya idmançılar üçün təlim-məşq toplanışları təşkil etdi”.

Şərq Döyüşü Sənəti Federasiyası təlim-məşq toplanışı ilə yanaşı, Bakıdan ixtisaslı mütəxəssislər də dəvət edəcək. Federasiyanın sədr müavini Cavanşir Salayev bildirdi ki, hər ay mütəmadi olaraq məşqlər davam edir və il ərzində bir neçə dəfə Bakıdan ixtisaslı idmançılar dəvət olunurlar. İyun ayında Naxçıvan Muxtar Respublikasında idmançılarımız üçün seminar da təşkil olunub. Bizim əsas məqsədimiz bu idman növünə olan marağı artırmaqdır. Son vaxtlar mütəxəssislər Naxçıvana dəvət edilir və onlar bu idman növü ilə məşğul olmaq istəyənlərin püxtələşməsində müstəsna rol oynayırlar.

Naxçıvan Muxtar Respublikası Boks Federasiyası təlim-məşq toplanışına iyun ayının ortalarında başlayıb. Federasiyanın sədr müavini Məmmədcəfər Əliyev bildirdi ki, qarşıdakı günlərdə muxtar respublikada bir neçə turnir keçiriləcək. Bu turnirlərdən öncə boksçular bir araya toplanır və ümumi halda təlim-məşq toplanışı keçirilir. İyul ayında da toplanış keçirməyi nəzərdə tutmuşuq.

Güləş Federasiyası hər hansı xüsusi təlim-məşq toplanışı keçirməyi nəzərdə tutmayıb. Buna səbəb isə güləşçilərin məşqlərə ara verməməsidir. Federasiyanın sədr müavini Yaşar Əliyevin dediklərindən: “Xüsusi bir təlim-məşq toplanışı olmayacaq. Çünki idmançılarımız daim məşq keçirlər və buna ara vermirlər. Adətən, yarışlardan öncə təlim-məşq toplanışı keçiririk”.

Naxçıvan Muxtar Respublikasının voleybol komandası isə hər yarış öncəsi təlim-məşq prosesi keçir. Bu barədə federasiyanın sədr müavini Aydın Mirzəyev məlumat verib.

Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyası da yay aylarını boşa verməyəcək. Federasiya bu ay basketbolçuları bir araya toplayacaq. Bunu bizimlə söhbətində federasiyanın sədr müavini Ənvər Məmmədov dedi: “Qarşıdakı aylarda turnirlərdə iştirak edəcəyimiz üçün iyul ayında təlim-məşq toplanışı keçirəcəyik. Həmin məşqlərə təkcə Naxçıvan şəhərində olan basketbol deyil, rayon komandalarında oynayan idmançılar da dəvət ediləcəklər”.

Yüngül Atletika Federasiyasının planında xüsusi təlim-məşq toplanışı yoxdur. Federasiyanın sədr müavini İntiqam Rəhimov bildirdi ki, hər hansı xüsusi təlim-məşq prosesi nəzərdə tutulmayıb. Lakin yay aylarında plana uyğun olaraq yarışlar təşkil olunacaq. Məqsəd isə istedadlı gəncləri üzə çıxarmaq, onlara olan diqqəti artırmaqdır.

Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasının sədr müavini Fərhad Əliyev qurumun görəcəyi işlərdən danışdı: “Məlum olduğu kimi, Atıcılıq Mərkəzində idmançılar daim məşq edirlər, burada yarışlar, turnirlər keçirilir. İyul ayında da bu cür yarışların keçiriləcəyi gözlənilir. Həmin turnirlərdə uğur qazanan idmançılar daim diqqətdə saxlanılır və onların məşqlərdə mütəmadi iştirakı təmin olunur”.

Hava və Ekstremal İdman Növləri Federasiyasının da iş planında təlim-məşq toplanışı var. Federasiyanın sədr müavini Azər Məmmədov qeyd etdi ki, keçirdiyimiz turnirlər, adətən, rayonlarda təşkil olunur. Keçirəcəyimiz yarışlardan sonra təlim-məşq toplanışı nəzərdə tutulur. Bu, iyul ayına təsadüf edəcək”.

## İdmançımızın uğuru

*Gürcüstanın paytaxtı Tbilisi şəhərində keçirilən qaydasız döyüşün MMA növü üzrə beynəlxalq turnir Naxçıvan idmançısı üçün uğurlu olub. Belə ki, qonşu ölkəyə yollanan idmançımız rinqdə bütün rəqiblərini məğlub edərək turnirin qalibi adını qazanıb.*

Azərbaycan millisinin heyətində Gürcüstana yollanan həmyerlimiz Gündüz Qarayevin ilk rəqibi yerli idmançı olub. Tam üstünlüklə qələbə qazanan Gündüz Qarayev finala yüksəlib. Hər kəsin maraqla gözlədiyi həlledici qarşılaşmada onun rəqibi Ermənistan idmançısı olub. Lakin rinqə çıxan Gündüz Qarayev rəqibini gözləsə də, erməni idmançı naxçıvanlı idmançı ilə döyüşməkdən imtina edib və rinqə çıxmaqdan çəkinib. Nəticədə, idmançımız texniki qələbə qazanıb və turnirin baş mükafatına layiq görülüb. Gündüz Qarayev bizimlə söhbətində turnirlə bağlı bunları dedi: “Turnirə ciddi hazırlaşırdım. Bilirdim ki, heç də asan rəqiblər olmayacaq. İlk döyüşümdə yerli idmançı üzərində tam qələbə qazandıqdan sonra digər rəqiblərim çəkindilər. Ancaq mən rinqə çıxıb öz döyüşümü göstərmək istəyirdim. Həlledici qarşılaşmada erməni idmançısını gözlədiyim halda, o, rinqə çıxmadı və mən qalib oldum. İndi qarşıda bir neçə beynəlxalq turnir var. Onlara da ciddi şəkildə hazırlaşıram”.

Qeyd edək ki, təşkilatçılar tərəfindən idmançımıza diplom və qiymətli hədiyyələr verilib.

**✍ Ceyhun MƏMMƏDOV**

***Müasir dünyada texniki avadanlıqlar insanların işini yüngülləşdirən ən önəmli vasitələrdəndir. Texnikalar vasitəsilə insan əməyi yüngülləşir, əlçatmaz görülən işlər, layihələr qısa zamanda reallaşır. Ancaq insan əli ilə yaradılan möcüzələrin yerini verən texniki vasitə müasir dünyamızda hələ icad edilməyib. Bu, geniş mövzudur və barəsində saatlarla danışmaq olar. Ancaq məqsədimiz texnologiyaların üstünlüklərinin üstündən xətt çəkmək deyil, əl əməyi, göz nurunun əhəmiyyəti haqqında söhbət açmaqdır. Məsələn, götürək xalçaları. Bu gün, demək olar ki, hamımızın evində sənaye üsulu ilə, yəni dəzgahda toxunan xalçalar vardır. Onu da bilirik ki, bu xalçaların toxunmasında insan əməyindən minimum istifadə edilib.***

## Əl əməyi, göz nuru...

Naxçıvan şəhərindəki “Əcəmi Seyrəngahı” Mədəniyyət və İstirahət Kompleksi ərazisində yerləşən hədiyyələr mağazasının müdiri Züriyyə Musayeva ilə söhbətimiz də burada satılan əl işləri, minbir zəhmət hesabına ərsəyə gələn hədiyyəlik əşyalar barədə oldu. Onu da qeyd edək ki, Züriyyə xanımın toxuculuq sahəsində yaxşı təcrübəsi var. Mağazanın bir tərəfində qurulan hanada, hələlik, yarıya qədər xüsusi zövqlə toxunan hədiyyəlik xalça onun bu sahədəki qabiliyyətini göstərir.

Onunla söhbət zamanı dedi ki, ev xanımlarının boş vaxtlarda yaratdıqları əl əməyi, göz nuru əsərlər həmin xanımların həm də gəlir mənbəyidir. Hədiyyələr mağazasında yaxşı imkanlar yaradılıb. Xüsusilə də tikmə sənətinə aid məmulatlar mağazada çoxluq təşkil edir. Buraya müraciət edən xanımların hədiyyəlik əl işləri satışa çıxarılır və münasib qiymətə satılır. Nəsillərdən nəsillərə keçərək günümüzədək gəlib çatan tikmə sənətini bu gün yeni-yeni elementlərlə zənginləşdirən ustalarımız var.

Əsrlər öncə ölkəmizə səyahət edən tacirlər, səyyahlar və diplomatlar tikmə sənətinin inkişafı haqqında maraqlı məlumatlar toplayıblar. Hələ XIII əsrdə italyan səyyahı Marko Polo Şamaxıda və Bərdədə gördüyü yerli ipək məmulatlarının, zərif işləməli geyimlərin gözəlliyindən bəhs edib.

Araşdırmalarda göstərilir ki, Azərbaycan bədii tikmələrinin texnika və kompozisiyasının qədim tarixi var. Arxeoloji materiallara əsasən, naxışsalmanın müxtəlif növlərinin yayılma xüsusiyyətləri müəyyənləşdirilib. Məsələn, bədii tikmələrdəki ornamentlərin sadə elementlərini – düz və sınıq xətləri, ziqzaqların nöqtəvi ornamentləri olan dairəcikləri, üçbucaqlar və rombları Erkən Tunc dövrünə aid saxsı qablarda görmək mümkündür.

XIX əsrdə yaşamış Azərbaycan şairəsi Xurşudbanu Natəvan gözəl şeirlərlə bərabər, zərif tikmələr müəllifi də olub. Muzeylərimizdə şairənin yüksək bədii xüsusiyyətlər kəsb edən bir neçə tikməsi saxlanılır. Muncuqlarla bəzədilən belə bədii tikmələrdən birini Natəvan xanım 1858-ci ildə Azərbaycana gəlmiş məşhur fransız yazıçısı Aleksandr Dümaya hədiyyə edib. Əl işinin incəliyinə heyran qalan Düma onu “ən dəyərli hədiyyə” adlandırıb. Natəvanın əl işləri və rəsmləri Rusiyanın müxtəlif şəhərlərində təşkil edilmiş sərgilərdə nümayiş olunub. 1882-ci il ümumrusiya sərgisinin Qafqaz şöbəsi vitrinində qoyulan sənət nümunələri içərisində xan qızının mahud üzərində qızılı və gümüşü saplarla toxuduğu əsərlər xüsusilə seçilib.

XIX və XX əsrin əvvəllərində bədii tikmələr üçün xammal olaraq yerli istehsal kimi qanovuz, darai və məxmərdən istifadə edilib. Bu materiallar, əsasən, Şamaxı, Şəki, Gəncə, Şuşa və Azərbaycanın digər şəhərlərində hazırlanıb. Bədii tikmə üçün yerli ipəkdən, yun saplardan və yerli basmaqəliblərdən geniş istifadə olunub.

Məişətimizdə tikmələr, əsasən, güləbətin, saya naxışlı bədii tikmə, təkəlduz, “quş gözü” texnikasında tikmə, basmanaxış, düyməmə, qurama, spiralşəkilli və sair formalarda hazırlanıb. Bu tikmə növlərinin ən qədimi qızılı və gümüşü saplarla işlənmiş bədii tikmələr olub. Belə əl işlərində, əsasən, çox sıx parçadan istifadə edilib. Qırmızı, tünd-qırmızı, bənövşəyi və yaşıl rəngli məxmər ən yaxşı material hesab olunub.

Azərbaycanın qədim bədii tikmə məmulatları ornamental motivlərin zənginliyi və müxtəlifliyi ilə fərqlənib. İpək parçalar üzərində mirvari və ya digər qiymətli daşlarla bəzədilərək işlənən təsvirlər heyranedicidir. Həmin əl işlərində qızılgül, nərgiz, qərənfil, lalə, zanbaq gülləri, sünbül, eləcə də nar, heyva, alça çiçəkləri, müxtəlif formalı yarpaqlar təsvir edilib.

Rəngli ipək saplarla işlənən bədii nümunələr arasında təkəlduz tikmələri daha geniş yayılıb. Təkəlduzçuluq üçün əsas material qismində yerli və ya xaricdə istehsal olunan qırmızı, qara və tünd-göy rəngli məxmər və mahud işlədilib. Belə bədii tikmələrlə qadınlarla yanaşı, kişilər də məşğul olublar. Təkəlduz bədii tikmələrlə qadın geyimləri, böyük yastıqların üzlükləri, mütəkkələr, ayaqaltı xalçalar və örtüklərə bəzək vurulub.

Ustalarımızın incə zövqlə hazırladıqları əl işləri beynəlxalq sərgilərin və muzeylərin ekspozisiyalarını bəzəyir. Azərbaycana aid olan xeyli tikmə sənəti nümunəsi Budapeştdəki Dekorativ Sənətlər və Şərq İncəsənəti muzeylərində saxlanılır. Bunlar ayrı-ayrı örtük, balışüzü, süfrə, yəhərüstü və bədii pərdələrdən ibarətdir. Bu nümunələr içərisində XVI əsrdə Təbriz ustaları tərəfindən hazırlanan pərdə xüsusilə diqqəti çəkir. Dünyanın müxtəlif muzeylərində ölkəmizə məxsus 200-dən artıq xalq sənəti nümunəsi mühafizə olunur ki, onların da arasında xalça, parça, tikmə və digər bədii sənət nümunələri var.

Əl əməyinin, göz nurunun məhsulu olan belə sənət inciləri xalqımızın mədəni sərvətləri içərisində mühüm yer tutur. İnsan təfəkkürünün süzgəcindən keçən belə nümunələr hədiyyələr mağazasında satılan ən dəyərli əl işlərindəndir.

**✍ Sona MİRZƏYEVA**

***İtmişdir***

Əhmədov Fəxrəddin Yunis oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Alxazov Sahib Altay oğlunun adına verilmiş MN-0041748 seriya nömrəli zabitin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***Allah rəhmət eləsin***

Naxçıvan Qızlar Liseyinin kollektivi iş yoldaşları
**DURNA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV
Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 571